1932
509

АРХИВ

MYŞFIQ



# Pambıq

894.3-91
M-97

AZƏRNƏŞR — 1932

1932
509

MYŞFIQ

894.362-1
M-94

# PAMBUQ

259478
40996

AZƏRNƏŞR

BAKЬ—1932

05520

Redaqtoru:
*H. MEHDI*

Texredaqtoru:
*M. T. KƏRIMOV*

Buraqьçь:
I. NƏFISI

Baş Mətbuat Mydirliji vəkili 3924. ADN 243. Sifariş 543.
Tirazь 5000.

Istehsalata verilmiş 29/V-32 Capa izn verilmiş 4/VIII-32.
Kitabьn həçmi ½ cap listi Kaƣьz formatь 72×110.
AZƏRNƏŞR mətbəəsində basьldь.
Bakь, Bol.-Marsqoj və Qrasno-Presnenski kycələrin tinində 16/36

# PAMBUQ

Gynlərin bir gynyndə
Qara Papaq kəndində
Məktəbdə pionerlər
Aldь belə bir xəbər:
Ki, dərslər qurtarьnça
Toplansьnlar quluba
Myhym bir məsələ var.
Gərək bytyn joldaşlar
Gəlsinlər bu içlasa
Içlaşda kim olmasa
Aƣьr təhmət alaçaq
Bəlkə cьqarьlaçaq

***

Uşaqlar mat qaldьlar
Dedilər:—gərək nə var?
Joqsa bir işmi olmuş?
Bəlkə jenə o, bajquş
Syfətli qolcomaqlar.
Uzun syrən bir azar
Gətirmişlər bu kəndə
Hamьnьn yrəgində
Şybhəli carpьntьlar
Dalƣalandь bir qarar.
Muzdur qьzь Gylpəri
Bu dolaşьq xəbəri.
Jordu başqa mə'najə
Daldь fikirə, xyljajə:

***

Bəlkə əsgi bir qacaq
Juça daqlar aşaraq
Kəndə vəlvələ salmьş
Bəlkə intiqam almьş
Bir joqsuldan qolcomaq.
Hər kəs jordu bir sajaq
Bu dolaşьq xəbəri
Dyşynyrdy Qulpəri
—Nə olmuş aj myəllim
—Cəkilin mən nə bilim!
Daim jьqьldьqьnьz
Içlasdьr da!...
—Gəl aj qьz
Gənç myəllimdən soraq
Yzyny turşudaraq
Nazlь dyşdy qerijə
Rast gəldi Gylpərijə
—Nə olmuş ej Gylpəri
Bizə ac bu xəbəri
—Mən øzym də bilmirəm
Bu işdən bi xəbərəm.

---

Zəng vurdu sьnьflara
Və sakitləşdi ara;

---

Zəng olmuşdu dişarь
Jьqdьlar uşaqlarь
Qət'i xəbər verdilər
Ki, bytyn pionerlər
Saat dyz dørt tamamda
Toplansьnlar quluba
Vermişdi bu xəbəri
Gylnaz—dəstə rəhbəri.

***

Janvar ajь hava sərt
Uşaqlar olmuşdu pərt



Bajьrda kylək əsir
Şaxta qьlьnç tək kəsir
Pul kibi qьzarmьşlar,
Qьzarьb bozarmьşlar,
Sojuqdan titrəjirlər
Coq sojuqdur dejirlər
Hava dutqun gøj dutqun
Tələbələr sojuqun,
Şiddətindən tələsir
Şaxta vurur jel əsir
Gøm-gøj olmuş əlləri
Topuq calьr dilləri.
Donaraq yşyjərək
Ləhləjib tøşyjərək
Evlərinə catdьlar,
Oçaqlarь catdьlar
Qьzьndьlar bir qədər
Jemək fьlan jedilər
Bir qədər uzandьlar
Xejli rahatlandьlar
Saat beşə catarkən
Gyn yfyqdə batarkən
Az qalmьşkən qyrubə
Jollandьlar quluba.

***

Qulub, qulub nə qulub
Əjər bu kəntdə olub
Ona salsajdьq nəzər
Yrəgin fərəhlənər,
Dojunça sejr edərik
Bir də baqьm dejərik.
Uşaqlar hamьsь gəldi
Şeir səsi jyksəldi
Adlarь qejd etdilər.
Icərijə getdilər.
Gəlməjənlər də vardь
Bir necə səhlənkarь

Hamь sakit oturmuş
Səssiz jerində durmuş.
Qьrqa kibi vardьlar
Işdən xəbərdardьlar.

**
*

Dəstə rəhbəri Gylnaz;
—Sakit olunuz bir az!
Dejə xitab ejlədi
Hamь onu dinlədi.
—Joldaşlar bilirsiniz
Bu gyn artьq bunu siz
Pambyq gərəkdir bizə
Bu Şura ɵlkəmizə
16-çь qurultaj
Qararь yzrə taj-taj
Aq qьzьl vərməlijiz
Şəhərə gɵndərməlijiz.
Ki, fabriklər jatmasьn
Dyşmən bizə catmasьn.
Şəhərdə durmajьr boş
Durmadan, cəkmə, qaloş
Paltar, maşьn və motor
Div jerişli traqtor
Alьb gɵndərir bizə
Bunlar mə'lumdur sizə
Şəhər kənt əlaqəsi
Bɵjyk Lenin Firqəsi
Sijasətindən doqur.
Əski həjatь boqur.
Gərək Azərbajçana
Dejək:—jeni Fərqana
Pambuqumuz coq olsun
Dyşmənimiz joq olsun.

**
*

Bizim kəndimiz bu il
Kecən il kibi dejil.
Artьq əmək cəkmişiər.
Coq bɵjuk jer əkmişlər.



Indi pambyqlar dəjmiş
Şaxlar bojnunu əjmiş
Aq cicəkli qozalar
Acьlmьş dynja qadar.
Toplamaqa qyvvə joq
Atalarьn işi coq!...
Bəjaz gylly pambuqlar
Gymyş telli pambuqlar
Kɵmək dejib baqьrьr.
Harajlajьb caqьrьr.
Dejir ki: Bizi dərin
Şəhərlərə gɵndərin
Bizdən kətan toqunsun
Dərin qojmajьn, qonsun
Ystymyzə toz bizim
Gərəkdir qolxoz bizim
Acьsьn halьmьza
Korlanmasьn bir qoza

**
*

Baq o dur kylək əsir
Şaxlarь şaxta kəsir
Aq pambuqlar saralьr
Kɵmyr kibi qaralьr.
Vərəm almьş qьz kibi
Gɵjdəki ulduz kibi.
Qaralьrlar, sɵnyrlər
Sɵnyb kylə dɵnyrlər
Kylək vurur toz dəjir,
Həm də sojuq tez dəjir
Bu gymyş pambuqlara.
Bu ɵlmyş pambuqlara.
Elə zərif çanь var
Əl dəjsək çanь cьqar

**
*

Uşaqlar bu sɵzləri
Eşidinçə gɵzləri
Şimşək kibi parladь
Tufan kibi gurladь

Içlasda pionerlər
--Sakit olun bir qədər
Ɓejə baƣьrdь Gylnaz
Hamь dedi: məni jaz.

Jazьlmajan olmadь.
Hec kəs dala qalmadь.
Hamь zərbəci olsun
Hamь tarlaja dolsun
Dedi: içlasda Gylnaz.
Hamь dedi məni jaz.

Cьqmalьjьz jarьşa
Tarlanь axtarьşa
Çoşub dejinçə Gylnaz
Hamь dedi məni jaz

Dɵnmədən bir an geri
Jorulan dəstələri
Işə baş cəkə-cəkə
Almalьjьz jedəgə
Çoşub dejinçə Gylnaz
Hamь dedi məni jaz

Işin jaxşьlьƣьna
Həm də artьqlьƣьna
Diqqət jetirməlijiz
Coq məhsul verməlijiz
Çoşub dejinçə Gylnaz
Hamь dedi:—məni jaz.

Xəbər olsun hamьja
Sabah tezdən tarlaja
Sel kibi çoşmalьjьz
Tarlaja qoşmalьjьz
Jənə dejinçə Gylnaz
Hamь dedi:—məni jaz.

**
*

Içlas jetdi tamama
Oqundu qət'nama



Əl caldьlar çoşdular.
Sədrə tərəf qoşdular
Artьq içlas qapandь
Hər kəs evə jollandь.
Coq sevinə-sevinə
Hər kəs catdь evinə
Aqşam saat səkkizdi.
Ulduzlar gɵrynməzdi.
Aj da gɵrynməjirdi.
Nura byrynməjirdi
Qaranlьqdь hər tərəf
Dumanlьqdь hər tərəf
Jaƣьş jaƣdь azaçьq
Gɵj yzy oldu acьq.
Ulduzlar jandь, sɵndy,
Ətraf gyndyzə dɵndy
Bu geçə nazlь geçə
Ajlь ulduzlu geçə

**
*

Səhər gynəş doƣmadan
Qaranlьƣь boƣmadan
Dan jeri sɵkylmədən
Ьşьqlar tɵkylmədən
Bu geniş jer yzynə
Hər pioner ɵzynə
Geçə sɵz verdigindən
O dur ki, sabah erkən
Sьcrajьb ojandьlar,
Caj icib jollandьlar.
Bir baş quluba doƣru
Hamь quluba doldu
Oldular bɵlyk-bɵlyk
Qoltuqlarьnda ɵnluq.

Durub jola dyşdylər
Tarlaja jetişdilər
Qarşьlarьnda gyja
Aƣ kɵpykly bir dərja

Mej vurur dalƣalanьr
Qozalar jьrƣalanьr
Əsib, sərin bir kylək
Xьşьldajьrdь hər lək
Oldular dəstə-dəstə
Dyşdylər pambuƣ ystə.
Gylnaz dəstə rəhbəri
Ɵnçə pionerləri
Bɵlmyşdy manƣalara
Topladьlar bir ara
Bə'zi dyz iki saat ;
Işlədilər parta-part
Kim-kimi sɵjlədilər
Və jarьş elədilər
Yc kilo hər tələbə
Jьƣьb catdь mətləbə

—

Aralarьnda fəqət
Bir az zəifdi Qydrət.
Qydrət işə sojuqdu
Cynky taqəti joqdu.
Gylnaz halьna baqdь
Onu işdən bьraqdь
Dedi: bir az rahatlan
Bizə verilən plan
Onsuzda coq dejildir.
Daldakь ləklərə gir.
Etmə o qədər təlaş
Dolaşub javaş-javaş
Jьƣ jerə dyşənləri
Qydrət atьldь geri

—

Bə'zən hava dutulur
Ətrafa duman dolur.
Bə'zən gynəş parlajьr
Pionerlər gurlajьr
Tarlada şimşək kibi
Firqəmizin tələbi



Dejirlər: dolsun gərək
Pambuq jьƣьlsьn gərək

—

Saat ikijə qədər
Bu ijit pionerlər
Işlədilər durmadan
Jorulub oturmadan
Indi cьqmьşlar caja
Bir kyj dyşmyş tarlaja

—

## ŞƏRQI.

Acьlьrsan cicək-cicək
Jumru-jumru gəzəl-gəjcək
Başьnda var bəjaz ləcək
Səfalьdьr jazьn pambuq

---

Qar kibidir, yzyn bəjaz
Sərinligin qarda olmaz
Qьş qarьnь alar almaz
Satьlьr pamazьn pambuq

---

Oqujub ojnadьlar
Çoşdular qajnadьlar
Onlarьn bu səsinə
Bu şirin nəqməsinə
Qulaq asdь atalar.
Və məhriban analar
Gərdylər uşaqlarь
Tarlanь etmiş jarь

**
*

—Saq olsun pionerlər
Dedi: qomsomol Əzdər
El qьzь Fatma xala
Dedi:—Uqurlar ola
Bu syr'ətli gedişə!
Jənə girdilər işə
Hurra dejən bir səslə
Bir syrəkli həvəslə

---

Bunlarьn arasьnda
Tarlanьn ortasьnda
Gərylər ki, oturmuş
Əzyny jerə vurmuş



Laqlaqcь tənbəl Səfər.
Uşaqlardan bir nəfər.
Dedi:
—Ej joldaşlar
Icimizdə tənbəl var.
Eşidinçə bu səzy
Tənbəl Səfərin yzy
Lap mis kibi qьzardь.
Yzy gəzy bozardь
Dedi: jorqunam bir az
Dəstə rəhbəri Gylnaz
Yzyny dutdu ona
Dedi:—Bir utansana
Balaça Gylpəridən
Daşdəmirdən, Piridən
Tarla qalmьş jarьmcьq
Hələ biz jьqmьşьq.
Ajьb olsun sənincin
Işdən qacьrsan nəcin
Səfər birdən ojandь.
Bu səzlərdən utandь
Əz-əzunə dedi ki,
Bьraqьb tənbəlligi
Işə girişməlijəm
Hamьnь kecməlijəm.
Colaqmьjam mən məgər
Xəstə olsajdьm əgər
Jənə dərd jarьjdь, mən
Xəbərsizəm əzymdən.
Əz-əzynə dejindi
Ənlygyny gejindi.
Birdən işə soquldu
Sankь zərbəci oldu.

---

Artьq gynəş batьrdь
Dag dalьnda jatьrdь
Jer yzy qaralьrdь
Gynəş lap saralьrdь

Gøjdə partaxal kibi
Birdən birə əsəbi
Bir fit caldь uzaqdan
Pionerlər də haman
Işdən dərhal сьqdьlar
Xarallara baqdьlar.
Hamь işdən сьqmьşdь
Hər pioner jьqmьşdь
Jeddi kiloja qədər
Onlar sevinirdilər
Onlarьn jьqdьqlarь
O gyn cəkildi ajrь
Sijahьsь alьndь.
Dəftərə gejd olundu
Mindilər arabaja
Vida edib tarlaja
Getdilər kəndə sarь
Leninin balalarь

---

SON

On gyn bu minval ilə
Døjyşgən bir hal ilə
Gedib cəkdilər əmək
Etdilər xalqa kømək
Qolxoz da, buna gørə
Baqьb hər pionerə
Qьş libasь, yst paltar
Cəkmə, qaloş, alt paltar
Dəftər, kitab, myxtəsər
Hər nə lazьmsa əgər
Alaraq etdi kømək
Jaşasьn zəhmət, əmək.

---

17370

1932
509